


Hər bir məktəbli həm öyrənmək, öyrəndiklərini paylaşmaq, həm də böyümək üçün həyatında bir dostun dəstəyinə ehtiyac duyur. Elm və Təhsil Nazirliyinin son illər Azərbaycanın bir sıra ümumi təhsil müəssisələrində reallaşdırdığı, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan növbəti uğurlu layihələrdən biri olan "Məktəblinin dostu" da məhz məktəblərdə dostluq, dəstək və birgə inkişaf ruhunu gücləndirən bir körpüdür. Bu layihə, eyni zamanda şagirdlərin təhsil mühitində özlərini daha güvənli və rahat hiss etmələri üçün yaradılan bir başlanğıcdır. Və məqsəd təkcə bilik ötürmək deyil, həm də gənc nəslin hərtərəfli inkişafını təmin edən bir cəmiyyət qurmaqdır. "Azərbaycan müəllimi" olaraq bu dəfə "Məktəblinin dostu"ndan danışacağıq. Həmsöhbətimiz layihənin İctimaiyyətlə əlaqələr şöbəsinin baş mütəxəssisi Nərgiz Kərimovadır.

# "MƏKTƏBLİNİN DOSTU": TƏHLÜKƏSİZ MÜHİT, VALİDEYN GÜVƏNİ...

## *Nərgiz Kərimova:*
## "Biz məktəbə, şagirdlərə və valideynlərə hər zaman daha yaxın, faydalı olmağa çalışırıq"

*– "Məktəblinin dostu" layihəsi barədə oxucularımıza bir qədər geniş məlumat verərdiniz.*

– Elm və Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi 2016-cı ilin dekabrından fəaliyyətə başlayıb. Layihənin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk yardım və psixoloji dəstək göstərməkdir.

Layihə Bakıda 191, Abşeronda 12, Sumqayıtda 23, Gəncədə 6, Lənkəranda 2, Cəlilabadda 2, Masallıda 2 ümumi təhsil müəssisəsi olmaqla, ümumilikdə 238 müəssisədə fəaliyyət göstərir.

420 minə yaxın şagirdi əhatə edən layihə üzrə hazırda 300-ə yaxın əməkdaş, məktəblinin dostu olaraq çalışır. Layihənin tətbiq olunduğu məktəblər təhlükəsizlik kameraları ilə təmin olunur və əməkdaşlar davamlı həm kamera vasitəsilə, həm də fiziki olaraq məktəb ərazisini gəzərək təhsil müəssisəsinə nəzarət edirlər.

*– "Məktəblinin dostu" layihəsi hansı xidmətləri göstərir?*

– Qeyd edim ki, "Məktəblinin dostu" yarandığı vaxtdan onun nəzdində Psixoloji Mərkəz fəaliyyət göstərir. Və həmin mərkəzdə işlər iki istiqamətdə - diaqnostika və psixoloji konsultasiyalar; təlim və treninqlər olaraq aparılır.

"Məktəblinin dostu"nun təşkilatçılığı ilə layihənin tətbiq olunduğu ümumi təhsil müəssisələrində "Yay məktəbi" həyata keçirilir. "Yay məktəbi"nin məqsədi yay tətili dövründə şagirdlər üçün əyləncəli və öyrədici proqramlar təşkil etməklə onların asudə vaxtlarını səmərəli keçirmələrinə dəstək olmaqdır. "Məktəblinin dostu" layihəsinin təşkil etdiyi "Yay məktəbi" iki ay müddəti əhatə edir. İyul ayında V-VI, avqust ayında isə VII-VIII sinif şagirdləri cəlb edilirlər və sonda onlara sertifikatlar təqdim olunur.

"Məktəblinin dostu" layihəsi çərçivəsində vaxtaşırı "Fövqəladə hallarda davranış qaydaları","İlk yardımın göstərilməsi", "Yol hərəkəti qaydaları", "Sosial şəbəkələrdən faydalı istifadə", "İnternet təhlükəsizliyi", "Düzgün danışıq, nitq bacarıqlarının həyatımızda rolu", "Təbiəti qoruyaq", "Heyvanlara qayğı", "Təlimçi məktəbli" kimi mövzuları əhatə edən maarifləndirici təlimlər həyata keçirilir.

*– "Məktəblinin dostu" kimlərdir və bu layihədə iştirak etmək istəyənlərin seçimi necə aparılır? Seçilən şəxslərin işləri əsasən nədən ibarətdir?*

– Azərbaycan Respublikasının vətəndaşı olan, yaşı 21-30 aralığında ali təhsilli şəxs məktəblinin dostu olmaq üçün müraciət edə bilər. "Məktəblinin dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətləri və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarıqlarının formalaşdırılmasında iştirak edirlər.

"Məktəblinin dostu" layihəsi çərçivəsində seçilmiş namizədlərə Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının fövqəladə hallarda davranış qaydaları, fərdi mühafizə vasitələrinin istifadəsi, Səhiyyə Nazirliyinin və TƏBİB-in nümayəndələrinin təcili tibbi yardım xidməti hadisə yerinə çatanadək ilk yardımın edilməsi, həmçinin təhsil mütəxəssislərinin ümumtəhsil müəssisələrində təhsil prosesində olan subyektlərin hüquq və vəzifələri, psixoloqların isə ilkin psixoloji dəstək göstərilməsi ilə bağlı təlimləri keçirilir.





İlkin mərhələdə "Məktəblinin dostu" məktəb mühitindən öncə bir sıra xüsusi hazırlıq, psixoloji təlimlərdən keçir və beləliklə, ilkin skrininq etmək bacarıqlarını mənimsəyir. Daha sonra məktəbdə psixoloji çətinliklər müşahidə olunduğu halda şagirdlərlə ünsiyyət quraraq onları narahat edən məsələlərin həllinə yardımçı olur.

*– "Məktəblinin dostu" hansı qurumlarla əməkdaşlıq edir?*

– Fövqəladə Hallar, Səhiyyə nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Baş Dövlət Yol Polisi İdarəsi, Qida Təhlükəsizliyi Agentliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi, Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu ilə səmərəli əməkdaşlığımız var.

*– Ötən müddət ərzində "Məktəblinin dostu" ümumtəhsil müəssisələrində xoşagəlməz hadisələrin, uşaqlar arasında insidentlərin qarşısının alınmasında nə kimi işlər həyata keçirib?*

– Bilirsiniz, məktəb elə bir təhsil-tərbiyə məkanıdır ki, burada baş verə bilən hər bir hadisə dərhal obyektiv araşdırma, həssas yanaşma tələb edir. Tərəflərin hüququ tapdalanmadan, sakit şəkildə münasibətlər öz yoluna qoyulmalıdır. Təbii ki, fəaliyyətimiz müddətində xoşagəlməz hadisələr baş verib. Dəfələrlə şagird və müəllimlərə, eləcə də valideynlərə ilkin tibbi yardım göstərilib, ehtiyac olduğu zaman təcili tibbi yardım çağırılıb, məktəblilər arasında baş verən mübahisələr həll edilib.

*– Bu gün məktəblinin dostları şagirdlərin güvənini qazanıb deyə bilərikmi?*

– Bilirsiniz, layihə fəaliyyətə başlandığı ilk gündən şagirdlər və valideynlərlə mütəmadi görüşlər keçirilib, onlarla görəcəyimiz işlər, fəaliyyət istiqamətlərimiz barədə maarifləndirici söhbətlər, müzakirələr aparılır. Xüsusilə qeyd edək ki, məhz layihənin şagirdlərin, eləcə də valideynlərin etibarını qazanması məsələsi hər zaman "Məktəblinin dostu"-nun prioritet maraqlarından biri olub. Çünki bizim işimiz təkcə təhlükəsizlik məsələləri ilə bağlı deyil, həm də mənəvi cəhətdən də şagirdlərə yaxın olmaqdır.

Bir məsələni diqqətinizə çatdırmaq istərdim. Belə ki, ötən il "Məktəblinin dostu" layihəsinin fəaliyyətinə dair elmi araşdırma aparıldı. Bu araşdırma təbii ki, layihə ilə bağlı şagirdlər və valideynlər arasında müxtəlif mövzularda həyata keçirilən sorğuların nəticələrini əks etdirirdi. Bizi sevindirən əsas məqam da məhz şagirdlərin məktəblinin dostlarına olan güvəninin yüksək olması oldu.

*– Layihənin işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərən ümumtəhsil müəssisələrində də reallaşdırılması nəzərdə tutulurmu?*

– Təbii ki, biz böyük məmnuniyyətlə istəyərdik ki, layihəmiz işğaldan azad olunmuş ərazilərimizdəki ümumtəhsil müəssisələrində də fəaliyyət göstərsin. Hələlik həmin ümumtəhsil müəssisələrində layihənin tətbiqi ilə bağlı hər hansı bir qərar yoxdur. Və bu olarsa, "Məktəblinin dostu"nun əhatə dairəsi genişlənməklə yanaşı, məhz həmin məktəblərdə fəaliyyət göstərmək istəyən çoxlu sayda gəncin arzusu reallaşmış olacaq.

*– Gələcək hədəfləriniz nələrdir?*

– Biz bu gün layihənin miqyasının böyüməsindən çox məmnunuq. Bu illər ərzində layihənin uğurlu fəaliyyəti bir daha göstərdi ki, onun əhatə dairəsinin genişləndirilməsi şagirdlərimiz və ümumilikdə məktəb mühiti üçün faydalıdır. Ötən il layihənin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı keçirilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev vurğuladı ki, ölkənin bütün ümumi təhsil müəssisələrində "Məktəblinin dostu" layihəsinin tətbiqi arzuolunandır. Düşünürəm ki, biz bu illər ərzində layihənin kadr seçimi prosesindən tutmuş sistemli fəaliyyətə qədər uğurlu yol qət etmişik. Bu yolda kifayət qədər təcrübəyə malik heyətimiz mövcuddur. Ona görə layihənin ölkə üzrə tətbiqi bizim də qarşıda duran prioritet hədəflərimizdən biridir. Çünki biz məktəbə, şagirdlərə, valideynlərə hər zaman daha yaxın, faydalı olmağa çalışırıq.

**Samirə KƏRİMOVA**

